Cıdır düzündə “Xarıbülbül” möcüzəsi

Mayın 12-13-də Şuşada keçirilmiş möhtəşəm “Xarıbülbül” musiqi festivalı parlaq mədəniyyət hadisəsi kimi tarixə qovuşdu. Amma unudulmaz musiqi bayramı kimi izlənən bu festival indiki həssas şəraitdə həm də bir mədəniyyət hadisəsi çərçivəsindən çıxaraq geniş rəmzi məna aldı. Eləcə də, həmin Ramazan günlərində Şuşanın Gövhər ağa məscidində qılınan bayram namazı milyonların yaddaşına təkcə tarixi əhəmiyyəti ilə deyil, həm də rəmzi çalarları ilə hopdu. Hər iki önəmli hadisə Şuşa şəhərinin Azərbaycan xalqı, onun tarixi və mədəniyyəti üçün müstəsna əhəmiyyət daşımasının daha bir parlaq təzahürünə çevrildi. Bizim üçün Şuşanın yaddaş gücünü və rəmzi mənasını daha da dərinləşdirdi.

Şuşa qalası – yaddaşın tükənməz gücü

Dünya tarixində ən böyük hünər və qəhrəmanlıqlar Vətən naminə edilir. Bunu İkinci Qarabağ savaşı bir daha göstərdi. Həmin savaş əcdadlarımızın qanımızda və ruhumuzdakı rəşadətini, içimizdəki milli qeyrəti və Vətən sevgisini tam açıqlığı ilə üzə çıxardı. Üçrəngli bayrağımızın işğaldan azad edilmiş ərazilərə, o cümlədən Şuşa qalasına sancılması qəhrəmanlıq yaddaşımızda yeni səhifə açdı. Şuşanın Azərbaycan xalqının düşüncəsində kök salaraq simvollaşmış “Vətən” obrazına yeni rənglər gətirdi. Şuşa elə lap əvvəldən bizim şüurumuza “alınmaz qala” simvolu kimi hopub.

Qədim müharibələrdə olduğu kimi, bugünkü savaşlarda da simvollar daim hədəfdə saxlanılır. Bu gün də savaşlarda simvolları vurmaq, onları ələ keçrmək əsas məqsədlərdən biri olaraq qalır. Məsələn, 2001-ci ilin 11 sentyabrında terrorçular Nyu-Yorkdakı ticarət mərkəzinə – Əkiz Qüllələrə ona görə hücum etdilər ki, bu göydələnlər Amerika firavanlığının və azad ticarətin simvolu idi. İkinci təyyarəni Pentaqona ona görə yönəltmişdilər ki, həmin bina ölkənin gücünün və güvənliyinin rəmzi idi.

Şuşa da bu gün Yer üzündəki bütün azərbaycanlılar üçün təkcə Qarabağımızı yox, ümumən, qəhrəmanlıq tariximizi, zəngin mədəniyyətimizi, azad ruhumuzu, milli qürur və heysiyyətimizi ifadə edən simvoldur. Bura həm də bizim söz və sənət beşiyimiz, Xan qızı Natəvan, Üzeyir bəy Hacıbəyli, Bülbül, Əhməd bəy Ağaoğlu, Mir Möhsün Nəvvab və digər dahi şəxsiyyətlərimizin dünyaya göz açdığı məkandır. Xalqımızın dünənlə bağlı yaddaşı, bu gün və sabahla bağlı arzu, ümid və düşüncələri məhz burada – Şuşada kəsişir. Ona görə də Şuşanın 1992-ci ilin mayındakı süqutu bizim üçün nə qədər böyük bir kədər idisə, 2020-ci ilin noyabrında onun işğaldan azad edilməsi bir o qədər böyük qürur mənbəyi oldu. Çünki biz bu torpağa bütün varlığımız, canımız, qanımız və ruhumuzla bağlıyıq.

İnsan hansısa məkanda yaşaya, torpaq üzərində gəzib-dolaşa, tikib-yarada, söküb-dağıda bilər. Ancaq onun həmin məkanla ruhi-mənəvi bağlılığı yoxdursa, bu torpaq, bu yurd onun deyil. Bu mənada bütün saxta iddialarına baxmayaraq, Şuşanın ermənilərə heç bir aidiyyatı yoxdur. Olsaydı ortaya dəlil qoyardılar. Pənahəli xanın XVIII əsrin ortalarında əsasını qoyduğu Şuşa qalasının hansı divarında, hansı daşında, şəhərin hansı tarixi binasında erməni izi var? Heç birində! Bu məkanda onları simvol kimi ifadə edən heç nə olmayıb. Çərəsizlikdən sübut kimi əl uzatdıqları “Qazançı kilsəsi” isə ermənilərə deyil, rus provaslavlara məxsusdur. Yəni Şuşa bizim üçün tarixə və gerçəyə bağlı olan yaddaş, ermənilər üçün isə yalnız illüziyaya əsaslanan təxəyyüldür. Bunlar ayrı-ayrı anlayışlardır və ona görə də yaddaşla təxəyyülü bir-birinə qarışdırmaq olmaz.

Şuşa ilə heç bir mədəni-mənəvi bağlılığı olmadığı üçündür ki, ermənilər 30 ilə yaxın işğal altında saxladıqları şəhərdə daşı-daş üstə qoymadılar, heç nə qura bilmədilər. Ordan-burdan adam daşıyıb bu qədim şəhəri məskunlaşdırmağa çalışdılar, onu da bacarmadılar. Şuşanı öz saxta tarixlərinə calamağa cəhd etdilər, ona da müvəffəq ola bilmədilər. Düzdür, qala divarları yanında “arxeoloji” qazıntı aparıb, guya, 2–3 min il əvvələ aid “maddi sübutlar” tapmışdılar, amma sonra məlum oldu ki, həmin “sübutlar” yaxınlıqdakı “Məzar daşı” sexinin tullantılarından başqa bir şey deyildir. Yəni bütün saxtakarlıqları kimi Şuşaya sahiblik iddiası da “gorbagor” oldu. Çünki onlar bu 28 illik işğal tarixinin hər günündə özlərini qonaq kimi görürdülər. Hər gün Şuşanın əsl sahiblərinin addım səslərini eşidirdilər.

Vüsala qovuşmaq səadəti

Ürəyində hansısa arzusu, nəyəsə ümid və həsrəti olan adamlar həmişə gələcəklə yaşayır. Bu mənada Azərbaycan xalqı, bizim hər birimiz 30 ilə yaxın idi ki, gələcəklə yaşayır, işğal altında olan torpaqlarımıza qovuşmağa ümid edir, gözəl Qarabağın, onun incisi olan Şuşanın həsrətini çəkirdik. Məmləkətdə Vətən namını qoruyan hər kəsi bu amal birləşdirirdi. Bütün bu illər ərzində nə dövlətimiz, nə cəmiyyətimiz, nə də sabaha ümidini itirməyən xalqımız işğal faktı ilə barışmadı. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin hər bir vətəndaşı qəlbində haqq-ədalətin öz yerini tapacağına və ərazi bütövlüyümüzün bərpa olunacağına böyük ümidlər bəslədi. Ölkədə hər şey, o cümlədən müasir ordu hazırlığı işi bu ali strateji məqsədə doğru yönəldildi.

Nəhayət, ötən il sentyabrın 27-də Azərbaycan Ordusunun əks-hücum əməliyyatları ilə başlanmış İkinci Qarabağ savaşı xalqımızın bu həsrətinə son qoydu. Ölkə Prezidenti və müzəffər Ali Baş Komandan İlham Əliyevin məharətlə idarə etdiyi 44 günlük müharibədə Azərbaycan tam Qələbə qazandı. Ordumuz uzun illərdən bəri torpaqlarımıza soxularaq yurdlarımızı viran qoymuş işğalçıları qədim Azərbaycan ərazilərindən qovaraq çıxartdı. Qarabağın düşməndən azad edilmiş bütün yaşayış məntəqələrində üçrəngli bayrağımız qürurla dalğalanmağa başladı.

Vətən müharibəsində bütün döyüş əməliyyatlarını uğurla həyata keçirən ordumuz 300-dən çox yaşayış məntəqəsini düşmənlə üzbəüz döyüşərək işğaldan azad etdi. Noyabrın 8-də Şuşanın xüsusi əməliyyatla geri qaytarılması müharibənin taleyini, demək olar ki, həll etdi. Mürəkkəb coğrafi şəraitdə, uca dağlar qoynunda yerləşən və sıldırım qayalarla əhatə olunmuş Şuşanın işğaldan azad edilməsi, sözün əsl mənasında, qəhrəmanlıq dastanına çevrildi. Bu ölüm-dirim savaşında parlaq milli ruh və böyük şücaət nümayiş etdirən Azərbaycan Ordusu dünya hərb tarixinə qızıl hərflərlə yazılan hücum əməliyyatını gerçəkləşdirdi. Əsgərlərimiz tank və top atəşləri altında mümkün olmayanı bacardılar. Onlar Alp dağlarındakı keçidlərdən də çətin olan sərt yamacları aşaraq, dar cığırlardan keçib Şuşaya piyada daxil oldular. Əlbəyaxa döyüşdə yüksək məharət göstərərək qələbə çaldılar. Noyabrın 8-də bu qələbə xəbərini Azərbaycan xalqına çatdıran Prezident İlham Əliyevin tarixi sözləri hələ də qulaqlarımızdadır: “Əziz Şuşa, sən azadsan!”

Azərbaycan xalqının qəhrəman oğullarının qanı-canı bahasına azad edilmiş əziz Şuşanın qala divarlarına yaxınlaşanda hamı həyəcanlı idi. Mini avtobusumuzda olan hər kəs heyrət və sükut içində gözlərini həmin divarların üstündə məğrurcasına dalğalanan üçrəngli bayrağımıza dikmişdi. İnsanların üzündə xilaskar qəhrəmanlarımıza olan minnətdarlıq hissini və Şuşaya qovuşmaq səadətini duymaq çətin deyildi. Şəhidlərimizin ruhuna dualar səsləndikcə içimdən bir fikir keçir: Vətən uğrunda ölüm həyatın davamıdır.

Kükrəyən duyğular dalğası

Şuşaya səfər edənlərin əksəriyyətini, xüsusən orta nəslə mənsub olanları və yaşlı insanları tez-tez kövrələn, duyğusal gördüm. Biz, sanki, duyğular dənizində üzürdük. Tanınmış elm adamları, mədəniyyət və incəsənət xadimləri daha çox diqqət mərkəzində idi. Xalq yazıçısı Anara, sanki, yeni ruh gəlmişdi, professor Şahlar Əsgərov yüksək dərəcədə məmnun idi, Xalq artistləri Polad Bülbüloğlu, Rauf Abdullayev... Flora Kərimova, tarzən Ramiz Quliyev, Şəfiqə Məmmədova, Həmidə Ömərova, Firəngiz Mütəllimova, Alim Qasımov, Azərin, Yalçın Adıgözəlov... çox sevincək idilər. Xalq artisti, professor Fərhad Bədəlbəyli isə sadəcə, uşaq kimi sevinmirdi, həm də qanad açıb uçurdu. Onun Cıdır düzündə gənclik ruhu ilə rəqs etməsi, ertəsi gün isə qala konsertdə özünün “Dəniz” simfonik əsərini şövqlə çalması uzun müddət yaddaşlardan silinməyəcək.

İnsanların kükrəyən hiss və duyğuları təkcə hərəkətlərlə ifadə olunmurdu, həm də sözlərdə qanad açırdı. Əksəriyyət Şuşa ilə bağlı xatirələrini danışırdı, indiki vəziyyəti ötən əsrin 70–80-ci illərinin şəhəri ilə müqayisə edir, təbii ki, bütün Qarabağın dincliyini pozmuş erməni separatizmini lənətləyirdilər. Diqqətimi cəlb edən bu idi ki, gənclər həmin söhbətlərə xüsusi maraq və sevgi ilə qulaq asırdılar. Bəlkə də, başqa vaxt və başqa yerlərdə bu məzmunda söhbətlərə bu qədər önəm verməzdilər. Amma həmin günlərdə insanlar doğma ocaq kimi sığındıqları Şuşada, sanki, katarsisdən –daxili təmizlənmə və mənəvi-ruhi saflaşmadan keçirdi.

Şuşa hər kəs üçün bir cür doğmadır, mənə isə ikiqat yaxındır. Uşaqlıq və yeniyetməlik illərim burada keçib. Orta təhsilimi bu şəhərdəki 3 nömrəli internat-məktəbdə almışam. Dünyanı dərk etməyimdə, az-çox bilik və dünyagörüşü qazanmağımda Şuşa da önəmli rol oynayıb. Sonrakı illərdə də bu şəhərlə bağlılığım olub. Universitetin jurnalistika fakültəsində təhsil alarkən ilk istehsalat təcrübəmi 1974-cü ildə “Şuşa” qəzetində keçmişəm. Ovaxtkı tələbə yoldaşlarım – indi məşhur şair Vaqif Bəhmənli və tanınmış jurnalist Çingiz Aslanovla birlikdə, təxminən, bir ay bu qəzetdə çalışmışıq. Qarabağın başı üzərini duman alanda Şuşanın da dərdlərindən yazmışam. Axırıncı dəfə isə bu şəhərdə 1990-cı ilin iyun ayında olmuşam. 1992-ci ilin yanvarında Şuşaya planlaşdırılan ezamiyyətim baş tutmayıb, çəkiliş qrupumuz Xocalıdan çıxa bilməyib.

Ona görə də 31 ildən sonra yenidən bu müqəddəs şəhərə qədəm qoyanda özümü, sanki, zamanla ayrılmış bir başqa məkanda hiss edirdim. Hər şey mənə yuxu kimi gəlirdi. Burada hər qarış torpaq, hər bina, hər nişanə mənə tanış idi. Sadəcə, elə bil ki, hər şeyin üstünə nazik his pərdəsi çəkilmiş, rənglər bir az solmuşdu. İndi şəhərə başlanmış gediş-gəlişlə həmin his-pas da tədricən çəkilir, şəhərin rəngi yavaş-yavaş özünə gəlir.

Təbii ki, Şuşanı ilk dəfə görmək başqa təəssüratdır, amma vaxtilə burada yaşayıb onu uşaqlığının şəhəri kimi yaddaşında yaşatmaq və indi gördüklərinlə müqayisə etmək tamamilə başqa hissdir. İkinci məqamda duyğusallıq və həssaslıq, sanki, bir neçə qat artır. Şuşa hamımız üçün doğmadır, amma şəhərlə bağlı xatirələri olan adamlar üçün o, bir köynək yaxın və daha əzizdir.

Qaliblərin yaraları tez sağalır

Şuşaya qədəm basan kimi onun müharibədən çıxdığı dərhal görünür. Çox yer uçurulub bərbad hala salınıb, xeyli tarixi tikili zərər çəkib, vaxtilə şəhərin hüsnünə gözəllik gətirən bəzi müasir binaları, o cümlədən mənim oxuduğum iki böyük korpuslu internat məktəbi yerlə-yeksan edilib.

Qaliblərin yaraları tez sağalır, – deyiblər. Şuşanın timsalında, bu, daha aydın görünür. Şəhərin işğaldan azad olunmasından o qədər böyük zaman keçməsə də artıq Azərbaycan dövləti Şuşanı yenidən bərpa edərək dirçəltməyə başlayıb. Şəhərin gözəlliyinin bərpası, infrastrukturun yaradılması və əvvəlki şöhrətinin qaytarılması prosesi davam etdirilir. İşlər isə hədsiz çoxdur.

Özünü dünyaya “mədəni xalq” kimi sırımaq istəyən ermənilər təkcə binaları, məscidləri, muzey və qalereyaları deyil, Şuşanın kommunikasiya xətlərini, yollarını, su borularını, qaz və elektrik xətlərini də vurub sıradan çıxarıblar. İndi bu infrastruktur yenidən qurulur. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə şəhərin ölkəmizin ümumi enerji sisteminə qoşulmasını təmin edən “Şuşa” çoxkilovatlıq yarımstansiyasının təntənəli açılışı bunu parlaq şəkildə sübut edir. Bundan başqa, şəhərin fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün hazırda Füzuli istiqamətindən “Şükürbəyli-Şuşa” hava elektrik verilişi xətti çəkilir.

İşğal rejiminin davam etdiyi bu 28 ildə ermənilər Şuşa şəhərində Azərbaycan adını və ruhunu yaşadan nə varsa, hamısını dağıtmağa çalışıblar. Yaxşı ki çox şeylərə gücləri çatmayıb. Əllərinə düşən hər fürsətdən gözəl təbii relyefi olan Şuşanın ümumi arxitekturasını pozmaq üçün istifadə ediblər. Xüsusən şəhərin yuxarı hissəsində – “Qızıl qaya” adlanan sahədə ümumi mənzərəni korlayan zövqsüz, “gecəqondu”lara bənzəyən daxmalar, xırda-xırda yaraşıqsız evlər tikərək şəhəri eybəcərləşdirib, ümumi təbii mənzərəni pozublar. İndi bunların hamısını söküb sahmana salmaq, şəhərin memarlıq ahəngini özünə qaytarmaq lazım gələcək.

Aparılan möhtəşəm quruculuq işləri əyani şəkildə sübut edir ki, Prezident İlham Əliyevin “Əziz Şuşa, biz səni yenidən quracağıq, səni dirçəldəcəyik!”–nəvazişi hazırda gerçəkliyə çevrilməkdə, əməldə reallaşmaqdadır. Ölkənin müxtəlif nazirlik və şirkətlərinin Şuşada çalışan nümayəndələri, sözün əsl mənasında, fədakarlıq göstərirlər. Prezidentin köməkçisi Anar Ələkbərov jurnalistlərə bildirdi ki, hazırda 40-dan çox obyektdə gecə-gündüz tikinti-bərpa işləri gedir. Cıdır düzünün lap yanında M.P.Vaqifin məqbərəsinin yenidən qurulmasının şahidi olduq. İşlərin gedişatına baxanda tezliklə Şuşada ənənəvi Vaqif poeziya günlərinə start veriləcəyinə adamda şübhə yeri qalmır.

Azərbaycanın konservatoriyası sayılan Şuşada musiqi korifeylərimizin ev-muzeyləri var və hökumət onların da bərpası ilə məşğuldur. Neçə illərdir ki, “Qarabağ ensiklopediyası” üzərində təkbaşına çalışan jurnalist dostum, köhnə şuşalı Vasif Quliyev bu muzeylər barədə bizə xeyli detallı bilgi verdi. Vokal sənətimizin görkəmli nümayəndəsi Bülbülün ev muzeyində aparılan bərpa işlərinə də baxdıq. Həmin işlərə rəhbərlik edən tanınmış arxitektor İlhami bəyin muzeydə və ümumən, şəhərdə aparılan möhtəşəm quruculuq işləri barədə bir şuşalı kimi şövqlə danışmasından zövq almamaq mümkün deyildi.

Şuşa qeyri-adi havasına, gözəl təbiətinə və coğrafi şəraitinə görə potensial turizm məkanıdır. Hazırda bu istiqamətdə də ciddi işlər gedir. Şəhərdə tarixi dəyəri olan 300-dən çox obyekt müəyyənləşdirilib. Onların təmir edilib turist marşrutlarına salınması əsas vəzifələr sırasındadır. Mayın 12-də Şuşada “Xarıbülbül” otelinin yenidənqurmadan sonra istifadəyə verilməsi turizm sahəsində ciddi bir addım oldu.

“Gövhər ağa”nın 133 il əvvəlki vəsiyyəti

İşğal dövründə Şuşadakı tarixi binalarla yanaşı, məscidlər də erməni vandalizminə məruz qalıb. Şəhərdəki 17 məsciddən 14-ü dağıdılıb, yerdə qalan 3-cü, o cümlədən “Yuxarı Gövhər ağa” məscidi isə yararsız hala salınıb. Halbuki bu məscid uzun illər boyu Şuşanın və bütün Qarabağın dini-ictimai həyatında önəmli rol oynayıb, xeyriyyəçilik işləri də görərək kasıblara, hətta yoxsulluqdan əziyyət çəkən ermənilərə də yardımlar göstərib.

Hələ 1901-ci ildə Şuşadan “Kaspi” qəzetinə göndərilmiş bir məktubda məlumat verilirdi ki, Qarabağ hökmdarı İbrahim xanın qızı Gövhər ağa 1883-cü ildə Şuşada iki məscid və onların nəzdində mədrəsə yaradıb. O, vəfatından əvvəl vəsiyyət edib ki, Qarabağdakı mülklərindən gələn gəlirlər məscid və mədrəsənin ehtiyaclarına xərclənsin. Qəzet 1888-ci ildə vəfat etmiş Gövhər ağanın vəsiyyətindən bu sətirləri də dərc etmişdi: “Bu müvəqqəti dünyadan haqq dünyasına, əbədi dünyaya köçməyimin yaxınlaşdığını hiss edirəm. Övladım olmadığı üçün sizə qoyub getdiyim məscid və mədrəsədən daha qiymətli heç nəyim qalmır. Sizə – məndən sonra hakim olacaq şəxslərə, cəmiyyətə təsir edə biləcək adamlara, nüfuzlu insanlara, bütün müsəlmanlara vəsiyyət edirəm ki, bu məscid və mədrəsəni yadların işğalından qoruyasınız”.

Gövhər ağanın vəsiyyəti bu sözlərlə bitirdi: “Elə eləməyin ki, mən sizin ədalətsiz əməllərinizdən Ulu Tanrıya şikayət edim”. Təəssüf ki, Xan qızının vəsiyyətinə əməl etmək mümkün olmadı. Gövhər ağa məscidi də, bütün Şuşa da uzun illər düşmən tapdağı altında qaldı. Ağrılardan inildəyən şəhər 28 ildən çox qovrula-qovrula qaldı. Və nəhayət, zülmün uzun çəkdiyini görən, ruhu inciyən Gövhər ağa, yəqin ki, şikayətlərini ulu Tanrıya çatdıra bildi...

Bu gün təkcə intizar çəkən Gövhər ağanın deyil, onun adına olan məscidin memarı, Qarabağda bir çox tikililərin, o cümlədən Ağdamda bərbad hala salınmış məscidin müəllifi olan Kərbəlayi Səfixan Qarabağinin də, orada nəqqaşlıq etmiş Mir Mövsüm Nəvvabın da ruhu şaddır. Şuşa azad edildikdən bu yana məscid qısa müddətdə istifadəyə yararlı hala salınıb və orada ilk dəfə Ramazan namazı qılınıb. Amma bunlar insan ruhunu şad edəcək işlərin heç də hamısı deyil.

Mayın 12-də Prezident İlham Əlievin və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə Şuşada yeni məscidin də bünövrəsi qoyuldu. Təzə möhtəşəm məscid şəhərin yuxarı hissəsində, “Qazançı” kilsəsinin, təxminən, yüz metrliyində tikiləcək. Çox müasir dizaynı olan yeni məscidin layihəsini Azərbaycan və İtaliya mütəxəssisləri hazırlayıblar. Onun yanaşı olan iki tikilisi 8 rəqəminə, yanaşı dayanan qoşa qüllələri isə 11-ə oxşayacaq. Yəni məscid hər kəsə Şuşanın işğaldan azad olunduğu 8 noyabr gününü xatırladacaq.

“Cıdır düzü” sahiblərinə qucaq açır

Az qala, bütün Qarabağa təbii pəncərə kimi açılan Cıdır düzündə həyəcansız addımlamaq mümkün deyildi. Buranın qəribə, sanki, mistik bir aurası var. İnsan seli bu mistikanı bir az da artırırdı. Adamlar ibadətə gəlmiş kimi tez-tez Allaha üz tuturdular. Hamı bir-birinin üzünə gülür, hamı qeyri-adi bir məkanda olduğunu hiss edir. Onu da hiss edirsən ki, Cıdır düzünün hər addımında Şuşanın tarixi ilə bağlı dərin bir yaddaş, dünənin və bugünün parlaq izləri yaşayır. O səbəbdən burada atılan hər addım insanda xoşbəxtlik duyğusu yaradır, niyə sevindiyini özün də bilmirsən.

Bəzən deyirlər ki, sevinmək başqadır, xosbəxt olmaq tamam başqa. Amma həmin gün mən həm sevinir, həm də özümü xoşbəxt hiss edirdim. Xoşbəxtliyin həyat tərzi deyil, an olduğunu isə daha dərindən duyurdum. Bu xoşbəxtlik anı bir gün çıxan Günəşin həftələrlə yağan yağışı unutdurması kimi idi. Allahın lütfündən həmin gün Cıdır düzündə ruh oyadan, könüloxşayan misilsiz bir hava var idi.

O anlarda xoşbəxt olan təkcə mən deyildim, adi insani duyğusu, azacıq milli təəssübkeşliyi olan, Şuşanın azad edilməsinin mahiyyətini dərindən anlayan hər kəs bu tarixi anları öz hafizəsinə və əllərində olan telefonların rəqəmsal yaddaşına köçürürdü. Müxtəlif yerlərdən gələn zənglərə insanların qürurla “mən indi Şuşada, Cıdır düzündəyəm” deyə bir növ fəxarətlə cavab verməsini anlamaq çətin deyildi. Hər kəs kükrəyən hisslərin, tez-tez qabaran duyğular qasırğasının içində idi. Biz uzun illər həsrətini çəkdiyimiz, haqqında intizarla danışdığımız, xəyallarımızda əzizləyib-bəslədiyimiz Şuşa əfsanəsinin gerçəkləşdiyinin fərqində idik.

Cıdır düzü təbii bir seyrəngahdır. Molla Pənah Vaqifin məqbərəsinin yanından ötüb bu seyrəngaha çıxan kimi yol özü səni gözəl mənzərəsi açılan Topxana meşəsinə tərəf çəkir. Dəniz səviyyəsindən təxminən iki min metr yüksəklikdə olan bu təbii çəmənlik solda Xankəndiyə tərəf, sağda isə iki yüz metr aşağıdan axan Daşaltı çayına və eyniadlı dərəyə baxır. Cıdır düzünün kənarındakı sıldırımlı cığır səni təbii quruluşu olan qırx pilləkənə, Daşaltı dərəsinə və Xan mağarasına aparır. Heyf ki, ermənilər bu mağaranı 1992-ci ildə dağıdıblar. Amma indiki halında da mağara da, qırx pilləkən də dünyanın ən baxılan təbii gözəllikləri sırasındadır. Hər şeydən gözəl olan isə Azərbaycan əsgərinin burada – Cıdır düzündə keşik çəkməsidir.

Bu düzənlik tarixən Qarabağ xanlığında cıdır yarışlarının keçirildiyi ərazi olub, sonradan burada həm də kütləvi Novruz şənlikləri keçirilərmiş. Bu günlər isə tarixlə müasirliyin qovuşduğu Cıdır düzü Qarabağın və bütövlükdə Azərbaycan ruhunun ifadəsi olan möhtəşəm “Xarıbülbül” musiqi festivalına qucaq açıb.

“Xarıbülbül” festivalı: ilk addımların əks-sədası

Yalnız Şuşanın Cıdır düzündə və Üçmıx dağında bitən Xarıbülbül çiçəyi indi dillər dastanıdır. Formasına görə təbiətin möcüzəsi olan bu çiçək hazırda bütün Qarabağın, o cümlədən Şuşanın rəmzinə çevrilib. İlk dəfə 1989-cu ilə məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar Şuşada keçirilmiş “Xarıbülbül” beynəlxalq festivalı bu çiçəyi də, onun ifadə etdiyi mənanı da xeyli dərinləşdirib populyarlaşdırdı.

Bir ildən sonra, 1990-cı ildə festival beynəlxalq status alaraq mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə öz töhfəsini verməyə başladı. Festivalda Avropadan və Orta Asiya respublikalarından ilk xarici qonaqlar iştirak etdilər. Beynəlxalq mədəniyyət təşkilatlarının bu gərəkli musiqi yarışmasına diqqət yetirməsinin nəticəsi idi ki, 1991-ci ildə keçirilən üçüncü “Xarıbülbül” festivalı böyük coşğuya səbəb oldu. Həmin tədbirə 25 ölkədən, o cümlədən ABŞ və Avstraliyadan təxminən 300 nəfər sənətçi qatıldı. Həmin dövrdə bu, sonuncu festival oldu, çünki 1992-ci il mayın 15-nə planlaşdırılmış 4-cü festival Şuşanın işğalı səbəbindən baş tutmadı.

İlk festivallar elə bir vaxtda keçirilirdi ki, Şuşanın başı üzərində qara buludlar və fəlakət kabusu dolaşırdı. Sənət adamları təhlükənin artdığı o günlərdə Şuşaya musiqi festivalına toplaşaraq bütün dünyaya “bura Azərbaycandır!” mesajını verirdilər. Amma o mesajın arxasında hərbi güc, peşəkar ordu, müasir silah, bacarıqlı rəhbərlik, etibarlı müdafiə sistemi, yüksək təşkilati-texniki hazırlıq dayanmırdı. Şəhəri yalnız yerli özünümüdafiə dəstələri və Ramiz Qəmbərov kimi fədailər qoruyurdu. Odur ki, məkrli düşmən öz himayədarlarının köməyindən istifadə edərək xəyanət yolu ilə şəhəri ələ keçirə bildi.

Dünyada ilahi ədalət varmış və məhz onun sayəsində misilsiz rəşadət göstərən Azərbaycan Ordusu qeyri-adi taktika və əlbəyaxa döyüşlə Şuşanı işğaldan azad edərək 30 ildən sonra “Xarıbülbül”ü yenə də Cıdır düzünə qaytardı. Ölkə başçısı İlham Əliyevin mayın 7-də Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edən sərəcamından beş gün sonra dağlar qoynundakı şəhər çoxdan bəri həsrətində olduğu doğma musiqinin sədalarına büründü.

Milli birlik, həmrəylik, zəfər və ləyaqət bayramı

Mayın 12-də başlanan və İkinci Qarabağ müharibəsində həlak olmuş şəhidlərimizin xatirəsinə həsr edilmiş “Xarıbülbül” festivalı adi musiqi bayramı deyildi. Düzdür, burada mədəniyyət daha parlaq şəkildə ifadə olunur, amma onun arxasında Azərbaycan xalqının qalibiyyətinin təsdiqi, müasir Azərbaycan dövlətinin gücü, onun ideologiyası, multikultural dəyərlərə sədaqəti və bununla bağlı dünyaya verdiyi mesajlar dayanır.

Azərbaycan Prezidentinin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən “Xarıbülbül” festivalı yüksək zövqün ifadəsi baxımından misilsiz bir aksiya idi. Tədbirin açılışında çıxış edən Prezident İlham Əliyev Şuşada “Xarıbülbül” festivalının keçirilməsini ölkəmizin tarixində əlamətdar hadisə kimi səciyyələndirdi. Festivalı “Ləyaqət bayramı” adlandıran dövlət başçısı dedi ki, bizim Şuşaya qayıdışımız reallıqdır, bu reallıqla hər kəs hesablaşmalıdır. Bu qayıdışı xalqımızın şanlı qələbəsi kimi qiymətləndirən və onun şəhidlərimizin canı-qanı bahasına qazanıldığını vurğulayan Prezident söylədi ki, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi məsələsi son üç onillik ərzində Azərbaycan dövlətinin gündəliyinin mərkəzində dayanmışdı. Dövlət başçısı xüsusi vurğuladı ki, Vətən müharibəsində xalq yumruq kimi birləşərək həmrəylik göstərdi, bu qələbəni Azərbaycan xalqı qazandı, qələbədə ölkəmizdə yaşayan bütün xalqların böyük payı vardır.

Azərbaycanın multikulturalizmə böyük önəm verdiyini diqqətə çatdıran Prezident İlham Əliyev bildirdi ki, ölkələr belə inkişaf etməlidir, ancaq çoxkonfessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf olur, birlik olur, milli həmrəylik olur, sülh olur. O, qeyd etdi ki, “Xarıbülbül” festivalı da Azərbaycanın multikultural ənənələrinə sadiq qaldığının daha bir təsdiqidir.

“Bayatı-Şiraz” muğamı (ifaçı Kənan Bayramlı) ilə başlayan festival avar, talış, tatar, ləzgi, yəhudi, rus, gürcü, ingiloy, udi, saxur, ukrayna və digər xalqların mahnıları ilə davam etdirildi. Ölkəmizdə yaşayan bu xalqların yaradıcılıq qruplarının bir-birindən maraqlı çıxışları, bütövlükdə, festivalın rəngarəngliyini daha da artırdı. Ölkəmizin hər bir kəsin vahid Vətəni olması mesajını bütün dünyaya çatdıran bu mahnılarda səslənən “Qarabağ ürəyimizdir”, “Mənim Azərbaycanım”, “Qarabağ Azərbaycandır” kimi ifadələri tamaşaçılar hər dəfə sürəklə alqışlayırdılar.

Əslində, müharibədən sonra Azərbaycanın mədəniyyət paytaxtı Şuşada ilk dəfə keçirilən “Xarıbülbül” festivalında ölkəmizdə yaşayan müxtəlif xalqların musiqisinin səsləndirilməsi böyük rəmzi məna daşıyırdı. Çünki, 44 günlük Vətən müharibəsində Azərbaycandakı bütün xalqların təmsilçiləri misilsiz fədakarlıqlar göstəriblər. İndi həmin xalqların işğaldan azad olunmuş Şuşada keçirilən və “Azərbaycan musiqisində multikulturalizm” devizi ilə təqdim edilən musiqi bayramında qələbə sevincini bölüşməyə tam mənəvi haqqı vardır.

Festivalın ikinci günündə Azərbaycanın peşəkar musiqi kollektivlərinin və görkəmli ifaçıların çıxışlarından ibarət qala-konsert oldu. Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Müslüm Maqomayev, Niyazi, Tofiq Quliyev, Vasif Adıgözəlov kimi korifeylərin musiqisi Cıdır düzünə yayıldı. Tamaşaçılar, sözün əsl mənasında, peşəkar musiqi və mədəniyyət bayramının iştirakçısı oldular.

Qala konsertdə Xalq artistləri Rauf Abdullayev, Yalçın Adıgözəlov, Əməkdar artist Fuad İbrahimov və Murtuza Bülbülün dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Xalq artisti Gülbacı İmanovanın bədii rəhbərliyi ilə Azərbaycan Dövlət Xor Kapellası çıxış etdilər.

Festival çərçivəsində Polad Bülbüloğlu, Alim Qasımov, Fərhad Bədəlbəyli, Azərin, Dinarə Əliyeva, Selcan Nəsibli, Elçin Əzizov, Əlixan Səmədov, Mənsum İbrahimov, Murad Adıgözəlzadə, Natiq Şirinov, Samir Cəfərov, Teyyub Aslanov, Yusif Eyvazov, Fərqanə Qasımova, Mirələm Mirələmov, Sahib Paşazadə, Şəhriyar İmanov, Şirzad Fətəliyev və digər ifaçıların çıxışları alqışlarla qarşılandı. Festivalın sonunda bütün iştirakçıların birlikdə “Azərbaycan” mahnısını (M.Maqomayev) ifa etməsi və xorla “Qarabağ Azərbaycandır!” söyləməsinin doğurduğu emosional coşğunu isə sözlə ifadə etmək mümkün deyildir.

Atəşfəşanlığın yaşatdığı sevinc və həyəcan

Cıdır düzündəki “Xarıbülbül” festivalını yaxın Xankəndidə və uzaq Yerevanda da səslərini içlərinə çəkərək ürəklərindən qara qanlar axa-axa izləyirdilər. Ona görə də ermənilər tədbirin açılış günü – mayın 12-də axşam təşkil olunan möhtəşəm atəşfəşanlığa biganə qala bilmədilər. Təxminən, 10 dəqiqədən sonra Xankəndidən çəkilmiş atəşfəşanlıq fotoları sosial şəbəkələri bəzəməyə başladı. Gileylənməyə başladılar ki, azərbaycanlılar başımızın üstündə durub bayram edirlər. “Biz bu atəşfəşanlıqdan qorxuruq”, “uşaqlarımız türklərdən ehtiyat edir” və s. kimi mənasız həyəcan mesajları verənlər də oldu... Amma nahaq yerə!

Mən atəşfəşanlığa çox normal hadisə kimi baxdım, hətta bundan duyğulandım. Biz bu ölkənin, bu torpağın sahibiyik, istədiyimiz kimi oxuyuruq, istədiyimiz yerdə oxuyuruq. Amma təbii ki, bizim davranışlarımız heç kimin, o cümlədən, ermənilərin də əleyhinə deyildir. Azərbaycan bu gün qalib ölkədir, amma bunu düşmənin başına o şəkildə qaxınc etmir. Yəni bu atəşfəşanlıq kiməsə acıq vermək, yaxud kimisə qorxuya salmaq üçün deyildir, sadəcə, festival çərçivəsində normal bir prosedurdur. Əlbəttə, bu addımın yerində dinc oturmaq istəməyən kimisə qıcıqlandırması təbii görünə bilər. Amma avtobusla keçib gəldiyimiz erməni kəndlərində biz adamlarda hansısa qəzəb və ya qıcıq hiss etmirdik. Məncə, onların çoxu anlayır ki, bu məmləkətin, bu torpaqların əsl sahibi gəlib çıxıb və bununla barışmaqdan başqa yol yoxdur. Bundan sonra, qisasçılıq hissi ilə yaşamaq bu adamların tamamilə məhvi demək olacaq.

Bu gün Azərbaycan bütün dünyaya xoş niyyət və əsl tolerantlıq nümayiş etdirir. Ölkədə yaşayan b